"NAXÇIVAN" UNİVERSİTETİ / ELMİ ƏSƏRLƏR/ 2019, № 1
"NAKHCHIVAN" UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2019, № 1
УНИВЕРСИТЕТ "НАХЧЫВАН"/ НАУЧНЫЕ ТРУДЫ/ 2019, № 1

**UOT 308:801.6:308:82.0:801.8**

**ÇİNARƏ RZAYEVA**
AMEA Naxçıvan Bölməsi
cinarerzayeva@yahoo.com.tr

# AZƏRBAYCAN DASTANLARINDA VƏ "ŞEYX SƏNAN" ƏSƏRİNDƏ SEVGİ UĞRUNDA MÜBARİZƏ MOTİVİNİN TƏHLİLİNDƏ PARALELLİK

*Folklorun geniş yayılmış və iri həcmli janrlarından olan dastanlar xüsusiyyətləri və müxtəlifliyi ilə seçilir. Məqalədə dastanlarımıza nəzər salanda görürük ki, öz sevdikləri uğrunda qəhrəmanlıq görstərən igidlərimiz də az deyil. "Fərhad və Şirin", "Koroğlu" dastanlarında təhlillər aparanda Fərhadın, Koroğlunun sevdiyi üçün etdikləri qəhrəmanlıqları, igidlikləri aydın şəkildə görürük. Sevgisi uğrunda aparılan mübarizəni biz təkcə şifahi xalq ədəbiyyatında deyil, həmçinin yazılı ədəbiyyatda da görürük. Məqalədə "Fərhad və Şirin", "Koroğlu" dastanları ilə yanaşı XX əsr Azərbaycan ədəbiyyatının görkəmli dramaturqu, romantik şairi Hüseyn Cavidin yaradıcılığında sevgi uğrunda göstərilən qəhrəmanlıq da təhlil olunmuşdur. Məqalədə, əsasən, "Şeyx Sənan" əsərindən nümunələr verilmiş və təhlillər aparılmışdır. Aparılan təhlillər zamanı məlum olmuşdur ki, dastanlardakı qəhrəmanlardan fərqli olaraq Hüseyn Cavid "Şeyx Sənan" əsərində Sənanın qəhrəmanlığını bir başqa formada qələmə almışdır. Sənan da öz sevdiyi qız üçün igidlik göstərir, qəhrəmanlıq edir. Aparılan araşdırmalar zamanı görürük ki, Sənanın Xumar uğrunda yerinə yetirəməyəcəyi bir iş yoxdur.*

**Açar sözlər:** *Dastan, qəhrəman, Hüseyn Cavid, "Koroğlu", Fərhad və Şirin", "Şeyx Sənan"*

Şifahi xalq ədəbiyyatının həcmcə ən böyük janrı olan dastanlar üç növə ayrılır. Qəhrəmanlıq dastanları, məhəbbət dastanları, Ailə-əxlaq dastanları. Hər bir dastanın xüsusuiyyəti öz adında əks olunur. Qəhrəmanlıq dastanı adından da göründüyü kimi özündə qəhrəmanlığı, igidliyi, mübarizəni əks etdirir. "Qəhrəmanlıq dastanlarında xalqın həyatı ilə bağlı tarixi hadisələrdən, onun haqq-ədalət və azadlıq uğrunda apardığı mübarizədən bəhs edilir. Belə dastanların qəhrəmanları xalq içərisindən çıxmış mərd, igid insanlar olur. Onlar yadelli işğalçılara, eləcə də daxili düşmənlərə, mənfi qüvvələrə qarşı igidliklə mübarizə aparır və qalib gəlirlər" (16). Tarixə nəzər salanda görürük ki, tarix boyu Azərbaycan-türk oğulları hər zaman haqq-ədalət və sevgi uğrunda mübarizə aparmış, demək olar ki, çox zaman da qalib gəlmişdir. Qeyd edək ki, folklorumuzda olan qəhrəmanlıq dastanlarının bir çox xüsusiyyətləri Hüseyn

**Məqalə tarixçəsi:**
Göndərilib: 10.02.2019, qəbul edilib: 06.03.2019

Cavid əsərlərində də özünü göstərir. İlk olaraq dastanların adının qəhrəmanın adı ilə eynilik təşkil etməsinə nəzər salaq:

Şifahi xalq ədəbiyyatında: "Koroğlu", "Qaçaq Nəbi", "Qaçaq Kərəm", "Fərhad və Şirin", "Tahir və Zöhrə" və b.

Hüseyn Cavidin "Şeyx Sənan" əsəri də bu qəbildəndir. Əsərin adı qəhrəmanın adı ilə eynilik təşkil edir. "Yəni xalq təfəkkürünün məhsulu olan həmin folklor nümunələrində bir başa qəhrəmanın adı əsərin sərlövhəsinə çıxarılır. Ona görə ki, həmin qəhrəmanlar əsərin bütün süjet və kompazisiyasının aparıcı simaları, ideyaların daşıyıcılarıdırlar" (8, s.260).

Şifahi xalq ədəbiyyatında dastanlara nəzər saldıqda görürük ki, dastan qəhrəmanları öz sevgiləri uğrunda bir çox mübarizələr aparmış, bəziləri mübarizənin sonunda qalib gəlmiş sevdiyinə qovuşmuş, bəziləri isə qovuşamayıb dünyasını dəyişmişdir. Məsələn folklorumuzda özünəməxsusluğu ilə seçilən "Fərhad və Şirin", "Koroğlu", "Tahir və Zöhrə", "Arzu Qəmbər" və s. bu kimi dastanlarda dastan qəhrəmanları öz sevgiləri uğrunda mübarizələr aparmış, qəhrəmanlıq göstərmişdir.

"Fərhad və Şirin" dastanında Fərhadın sevdiyi qız üçün etdiyi qəhrəmanlığa nəzər salaq:

Şəmistan padşahı car çəkdirdi ki, hər kim bu dağı yarıb Beysütun dağında olan bulağın suyunu mənim qapıma çəkib gətirsə, ona nə istəsə verəcəyəm. Bunu eşidən Fərhad padşahın hüzuruna gəlib dedi:

-"Padşah sağ olsun, izin versəniz mən dağı yararam. Beysütun dağında olan bulağın suyunu çəkib qapınıza gətirrəm.

Padşah dedi:

-İzindi get gətir, nə istəsən verrəm.

Fərhad dedi: qızın Şirini mənə verməyi vəd eləsən, gedib bulağın suyunu çəkib imarətinin qapısına gətirərəm" (1, s. 129).

Padşah buna razı olmasa da yalandan vəd verir. Fərhad gedir dağı yarır, suyu padşahın qapısına gətirir. Qızını vermək istəməyən padışah bu dəfə də şərt qoyur. Əgər bunu eləsən qızımı sənə verəcəm.

"Fərhad dedi:

-Şərtin nədi?

Padşah dedi:

-Get daşları yon, qızım üçün bir imarət qur, sonra Şirini sənə verim.

Fərhad padşahın sözünə razı oldu. Külüngünü çiyninə götürdü, bir axarbaxarlı yerə yetişdi..." (1, s. 129).

Bu yer Fərhadın çox xoşuna gəldiyi üçün burada daşları çapıb sevdiyi Şirin üçün bir qəsd tikməyə başlayır.

Verilən parçadan görürük ki, Fərhadın Şirinə olan sevdası üçün həm dağı yararaq Beysütun dağından suyu çəkmiş, həm də Şirin üçün daşları yonub imarət salması ilə qəhrəmanlıq göstərmişdir.

Bildiyimiz kimi dastanlarda qəhrəmanlar, öz amalına, istəyinə və sevdiyinə çatmaq üçün qoyulan şərtləri qəhrəmancasına yerinə yetirirlər. Onlar üçün əllərindən gələni edirlər. "Fərhad və Şirin" dastanından başqa "Koroğlu" dastanında da bunu görmək mümkündür. Koroğlunun Nigarın ona göndərdiyi məktub və şəkil üçün onun yanına getməsi, yolda qarşısına cıxan maneləri dəf

etməsini misal olaraq göstərə bilərik. Koroğlu ona gələn məktubun arxasınca gedir. Gəlib İstanbula çıxır. Nigar xanımı görmək üçün bir sıra tədbirlər görür. Axırda gəlib onun yanına çatır. Uzun söz-söhbətdən sonra Nigarı aparmağa nail olur. Ancaq buna asan nail olmur. Nigarın qardaşı Bürcü Sultan onu almağa gəlir. İndi Koroğlunun Nigar üçün etdiyi qəhrəmanlığa nəzər salaq: "Koroğlu Qıratı Bürcü Sultanın qoşununun üstünə sürdü. Elə bil bir ac qurd bir sürü qoyunun içinə düşmüşdü. Qoşunun qalan dəstəsi də ahu kimi çöllərə qaçdı. On yeddi osmanlı öldürüldü. Bürcü Sultan atını Koroğlunun üstünə sürdü. Koroğlu fıkirləşdi ki, Bürcü Sultam öldürsəm, Nigar xanım məndən inciyəcək. Koroğlu baxıb gördü Nigar xanım ağlayır. Nigar xanımdan ağlamağının səbəbini soruşduqda Nigar xanım dedi:

- Ey Koroğlu, bir qardaşım var, qorxuram onu da sən öldürəsən.

Koroğlu dedi:

- Ay xanım, qorxma, onu öldürmənəm (10, s. 80)

Sonra Koroğlunun qarşısına çıxan Firəng oğlu Nigarı almaq istəyir. Koroğlu isə Firəng oğlu və qoşunu ilə döyüşə girir və qalib gəlir. Həmin hissə:

- Ey Koroğlu, indiyə kimi qoçla yox, quzu ilə vuruşmusan. Sonra qılıncını çəkib Koroğlunun üstünə cumdu. Koroğlu Firəng oğlunun qolundan bir qılınc vurub qılıncını yerə saldı, birzərbə də gicgahına endirdi. Firəng oğlu huşunu itirib üç illik ölü kimi çadırın ortasına yıxıldı. Firəng oğlunun adamları Koroğlunun üstünə həmlə etdilər. Koroğlu onların on beş nəfərini öldürdü, o birilər də qorxudan dağa – daşa qaçdılar. Koroğlu fırəng oğlunun qollarını iplə möhkəm bağlayıb bir yabının üstünə qoydu (10, s. 84).

Verilən parçalardan Koroğlunun Nigar üçün etdiyi qəhrəmanlıqdan bir qismini görmüş olduq.

Bu xüsusiyyət Hüseyn Cavidin əsərlərində də özünü göstərir. Hüseyn Cavidin 1914-cü ildə qələmə aldığı "Şeyx Sənan" əsərində qəhrəmanın sevgisi uğrunda apardığı mübarizəni aydın şəkildə görmək mümkündür. Bu dram müsəlman şeyxi Sənan və xristian gürcü qızı Xumar arasındakı sevgidən bəhs edir.

Ancaq onu qeyd etməliyik ki, yuxarıdakı qəhərmanlardan fərqli olaraq Hüseyn Cavid "Şeyx Sənan" əsərində Sənanın qəhrəmanlığını bir başqa formada qələmə almışdır. Belə ki, Sənanın Xumar uğrunda yerinə yetirəməyəcəyi bir iş yoxdur.

Sənan Tiflisdə yuxusunda gördüyü gürcü qızı Xumara rast gəlir. Sənan qıza elə aşiq olmuşdur ki, o, Xumara görə dinindən, əqidəsindən, məqsədindən, düşüncəsindən, amalından, yoldaşlarından üz döndərir. Xumarın da ona qarşı sevgisi çoxdur. Elə buna görə də Xumar Sənana görə ölüm ayağında anasına verdiyi andı pozur, sözündə dura bilmir. Xumar anasına söz vermişdir ki, ərə getməyəcək, monastıra yerləşəcək. Sonra Sənan Xumar üçün deyilənləri bir- bir edir. İlk olaraq Papasın ona içki verməsini qəbul edir:

Papas
İçiniz bu şərabı öylə isə.
Şeyx Sənan
Zatən onsuz da sərxoşum ələn...

Papas
Xayır, al iç, sözün deyilsə yalan.

*Şeyx Sənan pərəstişkaranə baqışlarla Xumarı süzərək, həmən qədəhi alıb içmək istər, lakin bir dürlü cəsarət edəməz və bir taqım mütərəddidanə vəziyyətlərdə bulunur. Ən nihayət kəskin bir qərar ilə son damlasına varıncaya qadar içər. Şeyx Sədra dalğın bir halda baqınıb durur"* (7, s.165-166).

Sonra papas cibindən küçük bir xaç çıxarıb Şeyxə verir və deyir:

Pək gözəl, şeyxim, al şu xaçı da as.

Sənan heç tərəddüt etmədən xaçı asır və yarım qəhqəhə ilə deyir:

İbn Məryəm asıldı darə, fəqət
Onu təkrarə varmıdır hacət?
Bumu İsanın ərşə meracı?
Bən nəyim şimdi? Canlı dar ağacı...

Şeyx Sənan beləliklə də Xumarın eşqinə görə hər şeyə hazır olduğunu bir daha sübut edir.

Sonra Platon Xumarı alması üçün ona iki il donuz otarmağı təkilf edir. Sənan Xumar üçün Platonun təklifini qəbul edir. Əsərdə həmin hissəyə nəzər salaq:

P l a t o n
Şeyxim, ancaq bir iş də yapmalısın,
İki yıl tam domuz otarmalısın.

Hər kəsdə böyük bir qələyan.
Şeyx Sədra
*(Şeyx Sənana)*
Xayır, artıq bu pək fəna təhqir,
Səni ikrah için bu bir tədbir...
Şeyx Sənan
(Platona)
Onun eşqiylə bən ki dərbədərim,
Hər nə əmr etsəniz qəbul edərim

Gediniz, arqadaşlarım... Gediniz!
Başqa bir şeyxə iqtida ediniz.
İştə bən naili-vüsal oldum,
Aradım nuri-həqqi, ta buldum.
Seyr edib kainatı həp yorulun,
Arayın, siz də nuri-həqqi bulun.
Unutun həp zavallı Sənanı,
Unutun siz o sərsəm insanı (7, s. 199).

Burada da Şeyx Sənanın sevdiyi qız üçün istənilən hər birseyi etdiyinin şahidi oluruq. Qeyd edək ki Sənan ilk olaraq "dini təbliğ edən bir mübəlliğ, qadınlara nifrət edən bir fanatik kimi əsərə daxil olur və tamamilə təbii bir inkişafdan sonra fədakar bir aşiq, inkarçı bir mütəfəkkir kimi son səhnəni tərk

edir" (6, 12). Elə əsərdə də Sənanın dindən uzaqlaşmasını Şeyx Mərvan belə ifadə edir:

Şeyx Mərvan
Şeyximiz satdı dini, imanı,
Şeyximiz atdı hökmi-Quranı,
Hökmi-Quranı atdı bir qız için,
Həm şərab içdi, həm xaç asdı, bilin!
O qadından qaçan böyük Sənan,
Domuz otlatmaq üzrə oldu çoban (7, 199).

Bu da onu deməyə əsas verir ki, Şeyx Sənan Xumar üçün hər şeydən keçir. Nə qədər qəhrəmanlıq göstərib, deyilənləri etsə də sevdiyinə qovuşa bilmir. Sonda "təmiz insan sevgisinin saf, mənəvi gözəlliyin şairanə zirvəsinə yüksələn Sənan və Xumar avam şeyxlər, kinli papaslar mühitini aşağıda buraxır, simvolik bir yüksəklikdən Kür sularına atılırlar…" (6, s.14)

**Nəticə**

H.Cavidin əsərlərinin araşdırılması nəticəsində onu da demək mümkündür ki, şair yaradıcılığında yazılı ədəbiyyatı zənginləşdirən qəhrəmanlıq dastanlarının motivlərindən özünəməxsus ustalıqla və yerli-yerində istifadə etmişdir. Bununla da böyük dramaturq yazılı və şifahi ədəbiyyatın xüsusiyyətlərini yaradıcılığında əks etdirməklə ədəbiyyatımızın öyrənilməsində çox böyük rol oynamışdır.

Apardığımız tədqiqat zamanı bir daha əmin olduq ki, H.Cavidin əsərlərinin dili bundan sonra da həm folklor nümunələri baxımınından, həm də müxtəlif istiqamətlərdə öyrənmək üçün qiymətli və zəngin dil nümunəsidir.

## ƏDƏBİYYAT


1. Azərbaycan dastanı, 5 cilddə, V cild, Bakı: "Lider", 2005, 344s.
2. Azərbaycan folklor küllüyatı, XXVI cild. Dastanlar, (XVI kitab) Qaçaq Nəbi dastanı, Bakı: "Elm və Təhsil", 2011, 428 s.
3. Əfəndiyev Paşa. Azərbaycan şifahi xalq ədəbiyyatı, Bakı: "Maarif", 1981, 406 s.
4. H.M.Həşimli, Hüseyn Cavidin lirikası və Avropa poetik ənənələri, Bakı: "Elm və Təhsil", 2012, 92 s.
5. Hüseyn Cavid. Əsərləri. Beş cilddə. III cild. Bakı, "Lider nəşriyyat", 2005, 304 s.
6. Hüseyn Cavid. Əsərləri. Beş cilddə. I cild. Bakı, "Lider nəşriyyat", 2005, 256 s.
7. Hüseyn Cavid. Əsərləri. Beş cilddə. II cild. Bakı, "Lider nəşriyyat", 2005, 352 s.
8. Kamran Əliyev. Hüseyn Cavid: Həyatı və yaradıcılığı, Bakı: "Elm", 2008, 324 s.
9. Koroğlu. Bakı: "Lider", 2005, 552 s.
10. Koroğlu. Paris nüsxəsi. Bakı: "Şərq - Qərb", 2005, 224 s.
11. M.Cəfərli, Məhəbbət dastanlarının poetikası, Bakı: "Elm", 2000, 264 s.

12. _Naxçıvan folklor antologiyası. 3 cilddə, I cild. Naxçıvan: "Əcəmi", 2010, 513 s.
13. Naxçıvan folklor antologiyası. 3 cilddə, III cild. Naxçıvan: "Əcəmi", 2012, 560 s.
14. Qaçaq Nəbi. Bakı: Lider, 2005, 96 s.
15. http://artkaspi.az/az/sevgi-gzlerin-danisdii-bir-meqamdir-nigar-pirimova-yazir/#.W_aVIIczbIU
16. http://qehremanliq.blogspot.com/2014/04/siifahi-xalq-dbiyyatnn-bir-novu-dastan.html
17. https://az.wikipedia.org/wiki/H%C9%99c%C9%99r_(xalq_q%C9%99hr%C9%99man%C4%B1)
18. https://www.testbook.az/essay/show/506/insalar-huseyn-cavidinin-ana-eserinde-selma-ana-insanperverliyin-timsalidir
19. http://qadinla.com/heyat-terzi/ders/53605-ana-haqqi-tanri-haqqi-insa.html

**РЕЗЮМЕ**

**ЧИНАРА РЗАЕВА**

**ПАРАЛЕЛНЫЙ АНАЛИЗ МОТИВА БОРЬБА ЗА ЛЮБОВЬ В АЗЕРБАЙДЖАНСКИХ ЭПОСАХ И ДРАМЕ "ШЕЙХ САНАН"**

Отголоски популярных и масштабных жанров фольклора отличаются своими чертами и разнообразием. Глядя на наши эпопеи, мы видим, что есть много смелых парней, которые проявляют героизм для своих возлюбленных. Анализируя эпопеи «Фархад и Ширин», «Кероглу», мы ясно видим как Фархад, Кероглу проявляют героизм и мужество ради своей любви. Мы видим борьбу за любовь не только в устной народной литературе, но и в письменной литературе. В статье наряду с эпосами «Фархад и Ширин», «Кероглу» также анализируется героизм, проявленный любви в творчестве выдающегося поэта-драматурга и романтика азербайджанской литературы XX века Гусейна Джавида. В статья в основном приведены и проанализированны примеры из Шейх Санан. Во время анализов выяснилось, что, в отличие от героев эпосов, Гусейн Джавид в своем произведении «Шейх Санан» описал героизм Санана в совсем другой форме. Сенан также проявляет мужество и героизм ради своей любимой девушки. Он даже соглашается ради нее пасти свиней в течении двух лет. В ходе расследования мы видим, что нет работы которую Санан бы не выполнить ради Хумар.

**Ключевые слова:** Дастан, Герой, Хуссейн Джавид, "Кероглу", Фархад и Ширин, "Шейх Санан"

**SUMMARY**

**CHINARA RZAYEVA**

**HERO'S FIGHT FOR LOVE IN AZERBAIJANI EPOS AND THEIR IMPACT ON THE WORK OF HUSEIN JAVID**

Echoes of popular and large-scale genres of folklore are distinguished by their features and diversity. Looking at our epics, we see that there are many brave guys who show heroism for their loved ones. Analyzing the epic "Farhad

and Shirin", "Koroglu", we clearly see how Farhad, Koroglu show heroism and courage for the sake of their beloved. We see the struggle for love not only in folk literature, but also in written literature. In the article, along with the epos “Farhad and Shirin”, “Koroglu” also was analyzed the heroism shown by love in the works of the outstanding poet and playwright and the romanticism of twentieth-century Azerbaijani literature Huseyn Javid. The article mainly cites and analyzes examples from Sheikh Sanan. During the analysis, it turned out that, unlike the heroes of the epics, Husein Javid in his work "Sheikh Sanan" described the heroism of Sanan in a completely different form. Senan also shows courage and heroism for the sake of his beloved. He even agrees for her to feed pigs for two years. During the investigation, we see that there is no work that Sanan would not agree to do for the sake of Khumar.

**Key words:** Dastan, Hero, Hussein Javid, "Koroglu", "Farhad and Shirin", "Sheikh Sanan"

*(Akademik Əbülfəz Amanoğlu Quliyev tərəfindən təqdim edilmişdir)*